# AZƏRBAYCAN RESPUBLİKASINDA (DAĞLIQ QARABAĞ, ŞUŞA, LAÇIN, QUBADLI, ZƏNGİLAN, KƏLBƏCƏR, AĞDAM, FÜZULİ, CƏBRAYIL) EKOLOJİ VƏZİYYƏT

Sənəd 9148
27 iyun 2001-ci il

Məsləhət üzrə Təklif
Seyidov cənabları və başqaları tərəfindən təqdim edilmişdir

Hazırki təklif Assambleyada müzakirə olunmamışdır və yalnız imza edən üzvlər tərəfindən təsdiq edilmişdir

Ekoloji problemlərin hazırki dünyada qlobal mühümlüyünü nəzərə alaraq, Avropa Şurasını Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) müşahidə olan indiki ekoloji vəziyyət narahat edir.

Yuxarıda qeyd olunmuş Azərbaycan ərazilərində iki milli qoruq (Qarabağ və Bəsitçay) və dörd müvəqqəti qoruq (Laçın, Qubadlı, Araz-kənarı və Damaltı) yerləşir. Özünəməxsus unikal təbiət landşaftı, faunası və florası olan milli qoruqlar Azərbaycan tərəfindən heç bir surətdə nəzarət edilmir və məlumatlara görə, onlar sistematik olaraq talan edilir.

Yuxarıda qeyd olunmuş ərazilərdə yerləşən meşələrin ümumi sahəsi 264.000 hektardır. Hazırda qeyd olunmuş sahədə bütün ağacların ədalı növləri kəsilib və heyvanlar demək olar ki, tamamilə yox olublar. Nəticə olaraq, təbii komplekslər arasında olan ən mühüm bioloji əlaqələr pozulub və ekoloji krizis baş vermişdir.

Araz çayında olan suyun, Kür çayının ən uzun qolunun, Azərbaycanın ən mühüm su arteriyasının kimyəvi analizləri göstərir ki, suyun çirklənmə səviyyəsi mümkün normadan dəfələrlə artıqdır. Araz çayının əsas qollarının (Oxçuçay, Razdan, Arpaçay) Ermənistan ərazisindən keçdiyini və Ermənistan Respublikası tərəfindən "Sərhəd-keçən Su Arteriyaların və Beynəlxalq Göllərin Mühafizəsi və İstifadəsi Konvensiyası"-nın (Helsinki 2000-ci il) təsdiqləməməsini nəzərə alaraq, Assambleya hazırki vəziyyət ilə əlaqədar öz narahatlığını bildirir.

Bütöv Qafqaz regionunun yüksək seysmoloji səviyyəyə malik olduğunu nəzərə alaraq (Spitakidakı zəlzələ - 1988-ci ildə, Bakıda - 2000-ci ildə), Ermənistan Respublikasında atom stansiyasının mövcud olması yalnız Qafqaz regionunda yox, həmçinin bütün qərbi Avropa və Mərkəzi Asiya regionunda insan həyatına böyük potensial təhlükə yaradan bir mənbə kimi qiymətləndirilə bilər.

2001-ci il fevral ayında Azərbaycan Respublikası tərəfindən təsdiq edilmiş Baş Konvensiyasının Təhlükəli Tullantıların Sərhəd Sularından Keçmə Nəzarəti əsasnaməsi və yuxarıda qeyd edilmiş ərazilərin tamamilə nəzarət olunmaması faktını nəzərə alaraq, Assambleya Ermənistan atom stansiyasının Azərbaycan ərazilərinə nüvə tullantılarının atmaq mümkünlüyünə dair öz narahatlığını bildirir.

Yuxarıdakıları nəzərə alaraq, Assambleya Nazirlər Komitəsinə müvafiq addım atmaq xahişi ilə müraciət edir ki, Avropa kontinentinin unikal və işğal altında olan hissəsində ekoloji fəlakət baş tutmasın.

İmzalayanlar : [1]
Seyidov, Azerbaijan, EDG
Aliyev B., Azerbaijan, SOC
Aliyev G., Azerbaijan, EDG
Angelovicova, Slovakia, SOC
Gligoroski, "the former Yugoslav Republic of Macedonia", EPP/CD
Hajiyeva, Azerbaijan, EPP/CD
Huseynov A., Azerbaijan, EDG
Huseynov R., Azerbaijan, EPP/CD
Irtemcelik, Turkey, EDG
Landsbergis, Lithuania, EDG
Shakhtakhtinskaya, Azerbaijan, EDG
Taylor, United Kingdom, EPP/CD
Telek, Turkey, EDG
Tudor, Romania, EDG
Vakilov, Azerbaijan, EDG
Zarubinsky, Ukraine, EDG

[1] SOC: Socialist Group
EPP/CD: Group of the European People's Party
EDG: European Democratic Group

LDR : Liberal, Democratic and Reformers' Group
UEL: Group of the Unified European Left
NR: not registered in a group